# IN PRESCHOOL INSTITUTIONS IN THE SUMMER SEASON ORGANIZATION OF PEDAGOGICAL WORK

**Dilshad Dadashova**

Baku city, Khatai district, director of nursery-kindergarten No. 72
E-mail: dadashova.dilshad@mail.ru
https://orcid.org/0000-0003-2288-9886

**Abstract.** The article discusses the issues of effective organization of training and healthy activities in preschool educational institutions during the summer season. Timely and organized start of work organization in the summer season depends on management decisions made at the level of local self-governing bodies that manage education, as well as heads of educational institutions. Preparation for the summer season is carried out in accordance with the functional duties of employees in secondary educational institutions. Since summer is the most productive time for strengthening children's health, forming healthy lifestyle habits, as well as rules for safe behavior in nature, it is very important to properly plan work during this season. One of the main tasks facing preschool institutions is the effective organization of children's free time under the supervision of educators-teachers. It is mentioned in the article that organized excursions and walks in the bosom of nature plays an important role in shaping children's mental and physical development and artistic and aesthetic taste**.**

**Keywords:** tutor-teacher, pre-school institution, organization of training, training planning, summer season, health measures, outdoor activities.

**DOI:** 10.30546/2709-2488.2.2023.67
**To cite this article:** Dadashova D. (2023). In preschool institutions in the summer season organization of pedagogical work. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 67-77.
**Article history:** received – 03.04.2023; accepted – 10.05.2023.

# YAY MÖVSÜMÜNDƏ MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ PEDAQOJİ İŞİN TƏŞKİLİ

**Dilşad Dadaşova**

Bakı şəhəri, Xətai rayonu, 72 saylı körpələr evi–uşaq bağçasının müdiri
E-mail:dadashova.dilshad@mail.ru
https://orcid.org/0000-0003-2288-9886

**Annotasiya.** Məqalədə yay mövsümündə məktəbəqədər təhsil müəssisələrində təlimin, sağlamlaşdırıcı tədbirlərin səmərəli təşkili məsələlərindən danışılır. Yay mövsümündə işin təşkilinə vaxtında və mütəşəkkil şəkildə başlanılması həm təhsili idarə edən yerli özünüidarəetmə orqanları, həm də təhsil müəssisələrinin rəhbərləri səviyyəsində verilən idarəetmə qərarlarından asılıdır. Məktəbəqədər təhsil müəssisələrində yay mövsümünə hazırlıq işçilərin vəzifələrinə uyğun həyata keçirilir. Yay fəsli uşaqların sağlamlığının möhkəmləndirilməsində, sağlam həyat tərzi vərdişlərinin, habelə təbiətdə təhlükəsiz davranış qaydalarının formalaşdırılmasında ən məhsuldar vaxt olduğu üçün bu mövsümdə işlərin düzgün planlaşdırılması çox vacibdir. Məktəbəqədər müəssisələrin qarşısında duran əsas vəzifələrdən biri uşaqların asudə vaxtının səmərəli təşkilinin tərbiyəçi-müəllimlərin nəzarəti altında həyata keçirilməsidir. Məqalədə qeyd olunur ki, təbiət qoynuna təşkil olunan ekskursiyalar, gəzintilər uşaqların əqli, fiziki inkişafının, bədii-estetik zövqünün formalaşdırılmasında mühüm rol oynayır.

**Açar sözlər:** tərbiyəçi-müəllim, məktəbəqədər müəssisə, təlimin təşkili, təlimin planlaşdırılması, yay mövsümü, sağlamlaşdırıcı tədbirlər, açıq havada fəaliyyətlər.

**DOI:** 10.30546/2709-2488.2.2023.67
**Məqaləyə istinad:** Dadaşova D. (2023). Yay mövsümündə məktəbəqədər müəssisələrdə pedaqoji işin təşkili. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 67-77.
**Məqalə tarixçəsi:** göndərilib – 03.04.2023; qəbul edilib – 10.05.2023.

## Giriş / Introduction

Yay fəslində məktəbəqədər təhsil müəssisələrinin qarşısında duran əsas vəzifə bu mövsümdən uşaqların sağlamlığı üçün kifayət qədər yararlanmaq, maraqlı, məzmunlu oyunlar, gəzintilər, müxtəlif bayram tədbirləri və əyləncələr təşkil etməklə uşaqları sevindirməkdir. Bu zaman uşaqların təhsil məzmununun bədii-estetik, fiziki mədəniyyət və digər fəaliyyət növləri ilə (idraki-təcrübi, ünsiyyət, oyun, əmək və s.) inteqrasiyası böyüklərin uşaqlarla birgə fəaliyyəti şəraitində həyata keçirilir. Yay fəsli bütün uşaqların çox sevdiyi fəsildir, çünki isti yay günlərində onlar hər gün açıq havada gəzir, oynayırlar.

Yay fəslində uşaqların sağlamlaşdırıcı-fiziki, bədii-estetik istiqamətli fəaliyyətinin müvafiq qaydada məktəbəqədər təhsilin proqramı ilə tənzimlənən xüsusi təşkil olunmuş formalarda həyata keçirilməsi prioritet məsələdir.

Uşağın keçdiyi yol onun gələcək həyatının uğuruna birbaşa təsir göstərir. Məktəbəqədər yaşlı uşaqların yaş səviyyələrinə uyğun bilikləri vaxtında əldə etmələri çox vacibdir [“Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Dövlət Standartı”., 2019]. Yay mövsümündə məktəbəqədər təhsil müəssisələrinin qarşısında duran ən vacib məsələlərdən biri uşaqların asudə vaxtının təşkilidir. Münasib hava şəraitində kifayət qədər vaxt keçirmək imkanı bu problemin həllini xeyli dərəcədə yüngülləşdirir, lakin uşaqlar onlara artıq tanış olan, tez-tez təkrar olunan oyunlardan tez usanır və sıxılırlar. Onlar aktiv fəaliyyət növlərinə cəlb edilmədikdə vaxtlarını müxtəlif fəaliyyət formaları ilə doldurmağa çalışırlar. Bu zaman tərbiyəçi-müəllimin nəzarəti olmasa, uşaqlar həm özlərinə, həm də başqalarına zərər verə bilərlər.

“Uşaq bağçasının, tərbiyəçinin işinin planlaşdırılması – yaradıcı prosesdir. O, bəzən hava şəraitindən, pedaqoji situasiyadan, bayramlardan, valideynlərin arzusundan asılı olaraq dəyişə bilər. Beləliklə, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin planlaşdırılması zamanı rejim anları və onların davametmə müddətini, uşaq bağçalarında uşaqların həyatının təşkilinə verilən tibbi-gigiyenik tələblər, iqlim şəraiti, regionun xüsusiyyətləri, uşaq kontingenti və onların fərdi xüsusiyyətləri nəzərə alınmalıdır” [Cəfərova L., Qafarova İ., Muradova K., Rəhimova S., 2014].

## Əsas hissə / Main part

Yay mövsümündə məktəbəqədər müəssisələrdə uşaqların istirahəti elə təşkil edilməlidir ki, maraqlı, məzmunlu oyunlar, gəzintilər, bayramlar və əyləncələrdən yadda qalan xatirələr onları uzun müddət sevindirsin. Bu mövsümdə tədbir-

lərin çoxu açıq havada təşkil olunduğu üçün uşaqları daha çox cəlb edir. "Təmiz havada gəzinti məktəbəqədər yaşlı uşaqların orqanizmini möhkəmləndirir və onların hərtərəfli inkişafına müsbət təsir göstərir" [Məktəbəqədər təhsilin proqramı (kurikulumu)., 2022].

Yay fəsli uşaqların sağlamlığının möhkəmləndirilməsi, sağlam həyat tərzi vərdişlərinin, habelə təbiətdə təhlükəsiz davranış qaydalarının formalaşdırılması üçün ən əlverişli dövrdür. Məktəbəqədər yaşlı uşaqlarla yay istirahətinin uğurlu təşkili, əsasən, müəssisənin bütün kollektivinin buna nə qədər bacarıqla və vaxtında hazırlaşmasından asılıdır.

"Məktəbəqədər təhsil müəssisələrində müxtəlif yay proqramları erkən dövrdə sağlam inkişafı dəstəkləmək üçün mühüm rol oynaya bilər. Birincisi, pedaqoji cəhətdən düzgün tərtib və təşkil edilmiş yay proqramları uşaqlara həm böyüklər, həm də həmyaşıdları ilə dəstəkləyici sosial münasibətlər, emosional davranış və idrakın inkişafını təşviq edən münasibətləri yaşamağa şərait yaradır. İkincisi, bu cür proqramlar həm strukturlaşdırılmış, həm də strukturlaşdırılmamış oyun, eləcə də fəaliyyətlərdə uşağın seçimi üçün imkan yaradır" [Məktəbəqədər təhsil proqramı (kurikulumu)., 2022].

Yay mövsümündə məktəbəqədər təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- uşaqların həyatının qorunması və sağlamlığının möhkəmləndirilməsini, xəstəliklərin və xəsarət lərin qarşısının alınmasını təmin edən şəraitin yaradılması;
- uşaqların bədən tərbiyəsi və fiziki sağlamlığına, onların müstəqilliyinin, təşəbbüskarlığının, maraq və idrak fəaliyyətinin inkişafına yönəlmiş tədbirlər sisteminin həyata keçirilməsi;
- uşaqların tərbiyəsi və sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi üzrə valideynlərin maariflən dirilməsi işinin həyata keçirilməsi.

"Tətil günləri və yay mövsümündə bilavasitə təlim fəaliyyətinin aparılması tövsiyə edilmir. İdman və hərəkətli oyunlar, idman bayramları, ekskursiyaların təşkilinə xüsusi diqqət yetirilməlidir. Yay aylarında gəzintilərə daha çox vaxt ayrılır. Sağlamlaşdırıcı təsirə nail olmaq üçün gündüz rejimi uşaqların açıq havada maksimum qalmasını, yuxu müddətini və onların yaşına uyğun olan digər istirahət növlərini təmin edir [Cəfərova L., 2013].

Bu tələbləri nəzərə alaraq yay mövsümündə uşaqlarla aparılacaq işləri planlaşdırarkən "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı" nəzərə alınmalıdır. Bu sənədə müvafiq olaraq, uşaqların müstəqil fəaliyyətinin və böyüklərlə uşaqların qrup şəklində, habelə uşaq bağçası ərazisində birgə fəaliyyətinin təşkili üçün şərait yaratmaq lazımdır.

Tərbiyəçi-müəllimin uşaqların müstəqil fəaliyyəti ilə pedaqoji cəhətdən düz-

gün təşkil edilmiş asudə vaxt arasında tarazlıq yaratması vacibdir ki, tədbirlər və bayramlar özlüyündə bir məqsədə çevrilməsin, məktəbəqədər müəssisənin həyatına üzvi şəkildə daxil olsun.

Yay fəslində uşaqların asudə vaxtının təşkili həm tərbiyəçi-müəllimlər, həm də uşaqlar tərəfindən böyük hazırlıq tələb etməyən, inkişafetdirici və tərbiyələndirici funksiyalara malik, emosional, cəlbedici formalarda həyata keçirilə bilər. Bu fəaliyyət növü oyundur.

Gün ərzində tərbiyəçi-müəllimlərin planlarında uşaq fəaliyyətinin bütün növləri: hərəki, əməli, kommunikativ, əmək, idraki-tədqiqat, musiqili-bədii oyunlar oynamaq, uşaqlar üçün bədii ədəbiyyatın oxunulması nəzərdə tutulmalıdır.

Uşaqları gəzintiyə aparmazdan əvvəl tərbiyəçi-müəllim ərazini diqqətlə nəzərdən keçirməlidir. O, məktəbəqədər müəssisənin həyətyanı sahəsində və parklarda bitən bitkiləri, kolları tanımalı, onlar haqqında uşaqlara məlumat verməlidir.

Oyunların keçiriləcəyi yerlər kifayət qədər kölgəli, təhlükəsiz olmalı, kiçik oyun ləvazimatları, qum meydançası ilə təchiz edilməli, oyundan pedaqoji təlim metodu kimi istifadə olunmalıdır. “F.Fröbelin fikrincə, tərbiyəçi-müəllimlər təlim prosesində oyundan pedaqoji vasitə kimi istifadə etməlidirlər, lakin bu, o zaman səmərəli nəticə verər ki, müəllimlər pedaqoji işin incəliklərinə bələd olmaqla yanaşı, uşağın xarakter xüsusiyyətlərini də dərindən bilsinlər. Kor-koranə icra edilən oyunun səmərəsindən çox ziyanı ola bilər. F.Fröbel göstərirdi ki, oyun üçün xüsusi meydançalar olmalıdır ki, uşaqlar onun imkanlarından bəhrələnə bilsinlər. Uşaq orqanizminin fiziki cəhətdən möhkəmlənməsində, onun mənəvi inkişafında oyunların rolu əvəzsizdir” [Mikayıllı B., 2022].

Böyük Britaniyanın uşaq bağçalarında Erkən İnkişaf Dövrü Proqramı həyata keçirilir. Bu proqram özündə nələri ehtiva edir?

Erkən İnkişaf Dövrü Proqramı körpələrin fiziki, mənəvi inkişafına, rifahının yüksəldilməsinə yönəlib. Bu proqramın qarşıya qoyduğu vəzifələr məktəbəqədər təhsil sahəsində bir çox prioritetlərin həyata keçirilməsinə imkan verir. Bu proqramda göstərilən yeddi istiqamət üzrə uşaqların geriləmələri müəyyənləşdirilir və bu istiqamətlərdən biri oyunların da daxil olduğu fiziki inkişafdır. **“...– fiziki inkişaf** – uşaqlar hərəkətliliyə və hərəkətlərin koordinasiyasına yiyələnir, fəaliyyət üçün müxtəlif imkanlar qazanır, idmanla müntəzəm məşğul olmağın əhəmiyyətini dərk edir, sağlam qida anlayışı ilə tanış olurlar ” [Mikayıllı B., 2022].

Yay aylarında uşaqlar, demək olar ki, vaxtlarının çox hissəsini məktəbəqədər təhsil müəssisəsinin həyətyanı ərazisində keçirirlər. Bu zaman tərbiyəçi-müəllim uşaqların su rejiminə riayət olunmasına, hava şəraitinə uyğun geyinmələrinə nəzarət etməlidir.

Məktəbəqədər təhsil müəssisələrinin idman və oyun meydançalarında:

- uşaqlar müxtəlif növ hərəkətlərin (yeriş, qaçış, tullanma, dırmanma, atma, tutma və diyirlətmə) möhkəmləndirilməsi və təkmilləşdirilməsi ilə məşğul olmalıdırlar;
- uşaqların fiziki keyfiyyətləri (çeviklik, sürət, dözümlülük və s.) inkişaf etdirilməlidir;
- uşaqlarda müsbət əxlaqi və iradi xüsusiyyətlər (fəallıq, müstəqillik və s.) tərbiyə olunmalıdır.

Yay fəslində məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində və inkişafında əsas vasitə kimi müxtəlif hərəkətli oyunlar, idman oyunları, estafetlər, idman bayramları və əyləncələrdən istifadə etmək məqsə dəuyğundur. Yay fəsli həyatın təhlükəsizliyi üzrə proqram tapşırıqlarının yerinə yetirilməsi və uşaqlarda mədəni-gigiyenik vərdişlərin formalaşdırılması üçün əlverişli dövrdür.

Beləliklə, kiçik məktəbəqədər yaşlı uşaqlarla işləmək üçün didaktik oyunlar, mahnılar, laylalar, şeirlər, hekayələr, nağıllar, müvafiq məzmunlu şəkillərdən istifadə etmək olar.

Böyük məktəbəqədər yaşlı uşaqlara şəxsi gigiyena, fövqəladə hallarda ilkin yardımın necə göstəriləcəyi haqqında məlumatlar verilə bilər:

- Yay fəslində sağlamlığımızı necə qorumalıyıq?
- Soyuqdəymədən necə qorunmaq olar?
- Niyə çox gəzmək və hər gün bədən tərbiyəsi ilə məşğul olmaq lazımdır?
- İnsan çay, dəniz yaxınlığında, meşədə və s. yerlərdə necə davranmalıdır?

Müxtəlif təsvir üsullarından istifadə edərək qrup işi, həmçinin asfalt üzərində rəsm, uşaqların dizayn etmə bacarığı, tullantı materiallarından hazırlanmış əl işləri üzrə müsabiqələr təşkil etmək olar. Əməli fəaliyyətin mövzuları müxtəlif ola bilər.

Ətraf aləmlə tanışlıq, yay fəslində təbiəti müşahidə etmək, böyüklərin və uşaqların birgə fəaliyyətinin təşkili məktəbəqədər yaşlı uşaqlarda kommunikativ keyfiyyətlərin inkişafı üçün əlverişli şərait yaradır. Tərbiyəçi-müəllimlər uşaqlarla işləyərkən situasiyaya uyğun söhbətlər, mahnılar, yanıltmaclar, ədəbi əyləncələr, viktorinalar, kukla teatrı tamaşaları təşkil etməlidirlər. Bədii ədəbiyyatın oxunmasına, nağılların danışılmasına, oyunların, səhnəciklərin təşkilinə xüsusi diqqət yetirilməlidir.

**Əmək fəaliyyəti.** Kiçik məktəbəqədər yaşlı uşaqlarda özünəxidmət bacarıqlarının formalaşdırılması, əmək tapşırıqları və növbətçiliyin təşkili məsələlərini də unutmaq olmaz. Böyük məktəbəqədər yaşlı uşaqlar məktəbəqədər müəssisənin həyətyanı sahəsinin təmizlənməsinə, kiçik yaşlı uşaqlara kömək etməyə və məişət işlərinə cəlb edilə bilərlər.

Uşaqlar tədqiqat fəaliyyətlərində təbiət hadisələrini müşahidə etməli, onların arasında qarşılıqlı əlaqələr yaratmalı, cisimlərin və təbiət hadisələrinin qarşılıq-

lı asılılığı, təcrübə əsaslı işlərin (su və qum ilə), problemli vəziyyətlərin həlli məsələlərinə diqqət yetirməlidirlər.

Musiqili-didaktik oyunlar oynamaq, hekayə dinləmək, mahnı oxumaq, uşaqların yaradıcı inkişafı üçün şəraitin yaradılması onların emosional vəziyyətinə əlverişli təsir göstərir.

Yay mövsümündə böyük məktəbəqədər yaşlı uşaqlarla çəmənliyə, parklara gəzintilər, ekskursiyalar təşkil edilir. Belə gəzintilərin təşkilində məqsəd məktəbəqədər yaşlı uşaqları canlı aləmlə tanış etmək, onlarda əxlaqi, estetik və fiziki tərbiyəni, müşahidə, maraqlanma, təəccüblənmə qabiliyyətlərini inkişaf etdirmək lazımdır. "Belə gəzintilər zamanı uşaqlar yeni biliklər əldə edir, dözümlü olmağı öyrənir, eləcə də təbiətlə daha yaxından tanış olur, ətraf mühit, rənglər, atmosfer, quşlar, balıqlar, bitkilər, ağaclar haqqında ətraflı məlumatlar əldə edirlər. Müəllim təbiətin təbii imkanlarından istifadə etməklə öyrədəndə daha uğurlu nəticələrə nail olur. Real müşahidə bilik və təcrübənin əsas mənbəyinə çevrilir" [Mikayıllı B., 2022].

Böyüklərin köməyi ilə uşaqlar ən sadə qanunauyğunluqları və təbiət hadisələri arasında qarşılıqlı əlaqələri öyrənirlər. Tərbiyəçi-müəllim onlara hər gəzinti zamanı maraqlı təbiət hadisələrini müşahidə etməyi, ətraf aləmi dərk etməyi öyrədir. Uşaqlarda yaşıllığa, mavi səmaya, ağ buludlara heyranlıqla tamaşa etməyi, quşların oxumasından, suyun səsindən və s. həzz almaq bacarığını tərbiyə edir.

Gəzinti zamanı müxtəlif (məsələn, "Təsvirə görə çiçəyi tapın", "Yarpaqlarına görə ağacın adını tapın", "Ləpirçilər" və s.) didaktik oyunlardan istifadə etmək faydalıdır. Mahnılar oxumaq, tapmacalar, qısa hekayələr, şeirlər söyləmək də uşaqlar üçün maraqlı ola bilər.

Beləliklə, məktəbəqədər müəssisələrdə mövsümə uyğun işin sistemli və ardıcıl planlaşdırılması uşaqlarda canlı aləmə marağın artmasına, dünyagörüşünün inkişafına, təbiətə qayğı hissinin formalaşmasına kömək edəcək.

Nümunə üçün mövzular

***Uşaqlarla fiziki və sağlamlaşdırıcı işin təşkili:***

- müəyyən bir dövr üçün səhər fəaliyyətlərində edilən dəyişikliklər;
- hərəkətli oyunların təşkili;
- bayram və əyləncələrin təşkili;
- oyunlar və ya təbiət qoynunda gəzinti;
- su ilə oyunlar.

***Təbiət:***

- mövsümi müşahidələrin, hadisələrin təqvimi (həşəratlar, balıqlar, bitkilər, quşlar və s.);
- yaşadığımız bölgənin təbiətinin öyrənilməsi;
- çəmənlikdə və bostanda müşahidələrin təşkili;

- təbiətin sirləri, müalicəvi və zəhərli bitkilər haqqında;
- ekskursiyaların keçirilməsinə verilən tələblər;
- zəhərli bitkilərlə zəhərlənmənin qarşısını almaq üçün aparılan profilaktik işlər.

***Oyun:***

- yayda meydançalarda uşaq oyun avadanlıqlarının saxlanmasına və yerləşdirilməsinə verilən tələblər;
- yayda müxtəlif növ oyunların təşkili.

***Bədii və təsviri fəaliyyət:***

- təsviri fəaliyyətdə qeyri-ənənəvi üsullardan istifadə;
- uşaqlarda yaradıcılığın inkişafı.

***Yay əyləncələri və bayramlar:***

- uşaqlara Azərbaycanın milli bayramları haqqında məlumat verilməsi;
- bayramların təşkilinə verilən əsas tələblər;
- yayda açıq havada təşkil olunan bayram və əyləncələr üçün mövzuların, həmçinin materialların seçimi.

***Uşaqların təhlükəsizliyinin əsasları:***

- uşaqların müxtəlif təhlükəsizlik təlimatları ilə tanış edilməsi;
- yanğın təhlükəsizliyi qaydalarının öyrədilməsi;
- "Diqqət, yolu keçirik!" – yol hərəkəti qaydalarının öyrədilməsi üzrə işin təşkili.

***Diyarşünaslıq:***

- tarixi yerlərə ekskursiyaların təşkili;
- uşaqların diyarşünaslıq üzrə müsabiqələrinin mövzularını müəyyənləşdirmək.

Valideynlərlə işin təşkili. Valideynlər üçün hansı mövzularda söhbətlər və məsləhətləşmələr tövsiyə oluna bilər? Yay fəslində valideynlərlə hansı əlaqə formalarından ("açıq qapı" günləri, yaxınlıqda yaşayan maraqlı insanlar, birgə əmək fəaliyyəti və s.) istifadə etmək olar? Mövzularla bağlı görülən işlər, nəzəri və praktik yanaşmaların bu şəkildə açıqlanması məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçi-müəllimlərə bir çox işlərdə kömək edəcəkdir.

Yay fəslində proqramın müxtəlif bölmələri üzrə sistemli iş davam etdirilir. Bir çox fəaliyyətlər bu mövsümdə açıq hava şəraitində həyata keçirilir. Hər bir fəaliyyət növü üçün yer və vaxt təyin edilir. Uşaqların yay fəslində məşğulluğundan söhbət gedəndə müxtəlif suallar meydana çıxır. Yayda məşğələlərin keçirilməsinə ehtiyac varmı? Bu, onların istirahətinə mane olmayacaqmı? Yay tətilində məşğələlərin təşkili formalarının seçimində uşaqlara tam sərbəstlik vermək yox, onları kollektiv fəaliyyətə cəlb etmək və bu fəaliyyəti oyunlar formasında təşkil etmək lazımdır. Əks halda, onlar yorular və həyəcanlanarlar.

Yay mövsümündə planlaşdırma üçün tematik tövsiyələr

Metodik bölmə

***İyun***

- uşaqlar üçün əyləncə – "Sevimli nağıl qəhrəmanları";
- tərbiyəçi-müəllimlər üçün məsləhətlər – "Bağçada və çiçəklikdə uşaqların əməyinin təşkili";
- "Külək, su, qum ilə oyunlar üçün avadanlıqlar" mövzusunda tərbiyəçi-müəllimlər üçün seminar-praktikum;
- yayda bostanda və ya təbiət guşəsində işə hazırlıq üzrə müsabiqələrin keçirilməsi, sadə tədqiqat işlərinin və təcrübənin  təşkili.

***İyul***

- "Sevimli Yay" bayramının hazırlanması və keçirilməsi;
- uşaqlar üçün "Günəş, hava və su – ən yaxşı dostlarımızdır", "Kukla teatrı" mövzusunda əyləncələrin təşkili;
- "Yayda məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi" mövzusunda tərbiyəçi-müəllimlər üçün məsləhətlərin təşkili;
- "Təbiəti qoruyaq!" mövzusunda uşaq rəsm müsabiqəsinin təşkili.

**Avqust**

- "Biz güclü, çevik və dözümlüyük!" mövzusunda idman əyləncəsinin təşkili;
- "Mən yayı çox sevirəm!" mövzusunda əyləncə gecəsinin təşkili;
- tərbiyəçi-müəllimlər arasında təcrübə mübadiləsi məqsədi ilə görüşlərin təşkili (mövzuların seçimi   uşaqların arzusuna bağlıdır);
- "Yayda aparılan  sağlamlaşdırıcı işlərin nəticələri" adlı istehsalat müşavirəsinin təşkili.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlar üçün emosional rahatlıq yaradan, onların fiziki inkişafına və sağlamlığının möhkəmləndirilməsinə böyük töhfələr verən əyləncəli oyunlar və tədbirlərin təşkili uşaqların əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

## Nəticə / Conclusion

Araşdırmalara əsasən, bu qənaətə gəlirik ki, məktəbəqədər yaş dövrü uşaqların inkişafının ən həssas mərhələsidir və bu dövrdə onların əqli, fiziki, estetik inkişafı müxtəlif fəaliyyət növləri əsasında formalaşdırılır. Yay mövsümündə məktəbəqədər təhsil müəssisələrində aparılan işlərin nəticələri pedaqoji şuralarda, ümumi yığıncaqlarda müzakirə olunur. Analitik təhlil və qiymətləndirmə əsasında növbəti yay mövsümü üçün görüləcək işlər planlaşdırılır.

Metodist yayda uşaqların təlim və istirahətinin səmərəli təşkili üçün bütün

tərbiyəçi-müəllimlərin fəaliyyətinin əlaqələndirilməsini təmin edir. Məktəbəqədər müəssisənin pedaqoji kollektivi və valideynlər işin təşkilinə məsuliyyətlə və yaradıcı yanaşarlarsa, uşaqların istəkləri nəzərə alınarsa, yay tətilləri uşaqlar üçün maraqlı keçər. Məktəbəqədər müəssisələrdə yay mövsümünə elə hazırlaşmaq lazımdır ki, bu zaman  təşkil edilən maraqlı tədbirlər, ekskursiyalar, idman bayramları və s. uşaqların yaddaşında uzun müddət qalsın.

Deməli, yay mövsümündə işin sistemli və ardıcıl şəkildə planlaşdırılması vaxtdan uşaqların xeyrinə istifadə etməyə, onların dünyagörüşünün artmasına, təfəkkürünün inkişafına, onlarda təbiətə, ətraf mühitə qayğı hissinin formalaşdırılmasına kömək etmiş olur.

**Problemin aktuallığı.** Məktəbəqədər təhsil müəssisələrində yay mövsümü üçün fəaliyyətin planlaşdırılması və təşkili hər zaman aktualdır. Yeni məzmunun tətbiqi təlimin digər növlərinə və fəaliyyətlərin təşkilinə inteqrasiya edildiyi kimi, yay mövsümündə də bu problemə  yeni yanaşmaların tətbiqi zəruridir.

**Problemin elmi yeniliyi.** Məqalədə məktəbəqədər təhsil müəssisələrində yay mövsümündə təşkil edilən fəaliyyətlərin məzmununa yeni yanaşmalardan söhbət gedir. Emosional rahatlıq yaradan, uşaqla rın əqli, fiziki inkişafına, sağlamlığının möhkəmləndirilməsinə töhfələr verən oyunların və əyləncələrin təşkili təklif olunur. Qeyd edilir ki, belə oyun və əyləncələr  uşaqların sağlamlığına, əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən ideya və tövsiyələrdən tərbiyəçi-müəllimlər, məktəbəqədər təhsil sahəsində  tədqiqat aparan dissertant və doktorantlar, dərs vəsaitləri hazırlayan müəlliflər faydalana bilərlər.

## İstifadə edilmiş ədəbiyyat / References


1. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. 16 iyun, 2017-ci il. http://www.president.az/articles/24248
2. "Məktəbəqədər təhsilin dövlət standartı". 08 avqust, 2019-cu il. http://www.edu.gov.az/
3. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı şəhəri,  22 iyul, 2022-ci il, № 3378.
4. Cəfərova L. (2013). Məktəbəqədər müəssisələrdə təlim prosesində keyfiyyətin  idarə olun ması. Bakı, "Kurikulum", № 3, s. 43–47.
5. Cəfərova L. (2022). Azərbaycanda müasir məktəbəqədər təhsil sisteminin təhlili. "Məktəbəqədər və ibtidai təhsil", № 2/239, s.9.

6. Cəfərova L., Qafarova İ., Muradova K., Rəhimova S. (2014). Məktəbəqədər təhsil müəssisələri üçün təlim materiallarının təxmini planlaşdırılması (metodik tövsiyə). Bakı, 121 səh.
7. Məktəbəqədər təhsil proqramı (kurikulumu). 2022, 11 aprel.
8. Mikayıllı B. (2022). Məktəbəqədər təhsil: dünya təcrübəsi – tarixi və müasir aspekt. Məktəbəqədər və ibtidai təhsil, № 4. Bakı, "İmza" nəşrlər evi, s.10-35.
9. https://duimovochka7.com/organizatciya-raboty-v-letnij-period/ Organizatsiya rabotı v letniy period
10. https://xn-j1ahfl.xnp1ai/library/organizatciya_raboti_v_dou_v_letnij_period_093731.html
11. https://infourok.ru/plan-raboty-na-letnij-ozdorovitelnyj-period-v-detskom-sadu-4368047.html
12. https://unesdoc.unesco.org/ark:/48223/pf0000147448_eng
13. The Effects of Summertime Experiences on Children's Development. https://www.ncbi.nlm.nih.gov/books/NBK552668/